UOT 37.01.

*Samirə Mürvət qızı Həsənova*
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Respublikası Təhsil İnstitutu*

# ORFOQRAFİK-ORFOEPİK BAXIMDAN ÇƏTİN SÖZLƏR ÜZƏRİNDƏ İŞİN ŞAGİRDLƏRİN YAZI BACARIQLARININ İNKİŞAFINDA ROLU

*Самира Мурват гызы Гасанова*
*докторант по подготовке доктора философии*
*Институт Образования Азербайджанской Республики*

# РОЛЬ РАБОТ НАД ТРУДНЫМИ СЛОВАМИ В РАЗВИТИИ ПИСЬМЕННЫХ УМЕНИЙ УЧЕНИКОВ С ОРФОГРАФИЧЕСКИ-ОРФОЭПИЧЕСКОЙ ТОЧКИ ЗРЕНИЯ

*Samira Murvat Hasanova*
*doctorial student in the proqramme of a Ph.D*
*Institute of Education of the Republic of Azerbaijan*

# THE ROLE OF WORKING ON DIFFICULT WORDS FROM THE ORTHOGRAPHIC-ORPHOEPIC POINT OF VIEW IN THE DEVELOPMENT OF PUPILS' WRITING SKILLS

**Xülasə:** Məqalədə ibtidai sinif şagirdlərinə çətin sözlərin öyrədilməsi, onların yazı bacarıqlarının inkişaf etdirilməsi, bu proseslərin təşkili zamanı orfoqrafiya və orfoepiyanın rolunun müəyyənləşdirilməsi kimi məsələlər ön plana çəkilmişdir. Müəllif kiçikyaşlı məktəblilərin lüğət ehtiyatının artırılması yollarını araşdırmışdır. Həmçinin, işin səmərəli təşkili məqsədilə diqqət yetirilməli məqamları sistemləşdirərək təqdim etmişdir.

***Açar sözlər:*** *çətin sözlər, orfoqrafiya, orfoepiya, leksika, tapşırıq, şagird, lüğət*

**Резюме:** В статье выдвинуты такие вопросы как обучение школьников трудным словам, развитие их письменных способностей, определение роли орфографии и орфоэпии в организации этих процессов. Автор проанализировал пути обогащение словарного запаса школьников младших классов. Также систематизированы и представлены моменты выполнение эффективной организации работы.

***Ключевые слова:*** *трудные слова, орфография, орфоэпия, лексика, задание, ученик, словарь*

**Summary:** Problems of traning of difficult words, students of primary schools, development of their writing abilities, determination of the role orthography and orthoepy in the organization of these processes have been forehead in the article. The author analized the ways of enrichment of vocabulary of pupils of primary schools. The moments of the effective organization of the work performance have been systematized and presented here too.

***Key words:*** *difficult words, orthography, orthoepy, lexicon, exercise, pupil, vocabulary*

Söz düşüncələrin ifadəsi, davranışların təsviri və təcrübələrin hafizədə toplanmasıdır. "İnsanın bilgisinin, mədəniyyətinin və düşünmə qabiliyyətinin hüdudu bildiyi kəlmələrin miqdarı ilə sərhədlənir" (4). "Fərdin istifadə etdiyi sözlərin cəmi" (6) və ya "öyrənənin təhsil aldığı müddətdə qazandığı təcrübə sayəsində formalaşmış söz bazası" (5), lüğət ehtiyatının zənginliyi insana ətraf aləmi, obyektləri, hadisələri, prosesləri daha geniş baxış bucağından görməyə zəmin yaradır. Sözlər müxtəlif məna və məzmun daşımaqla düşüncə zəncirinin halqalarını formalaşdırır. Uşağın lüğət fondundakı kəlmələrin kəmiyyəti və keyfiyyəti onun qazanacağı nailiyyətlə birbaşa əlaqəlidir. Sözlərin dərinliyi (hər bir sözün müxtəlif mənalarını bilmək; məktəb təcrübəsinin araşdırılması bu istiqamətə digərləri ilə müqayisədə daha çox laqeydlik göstərildiyini üzə çıxarmışdır), genişliyi (müxtəlif mövzular üzrə çox söz bilmək), ağırlığı (konkret bir mövzu üzrə çox söz bilmək) istiqamətlərində iş aparılması məktəblinin mövcud bazasını daha da zənginləşdirməyə hesablanmışdır.





Şəxsiyyət üçün zəruri hesab edilən lüğət fondu məktəbəqədər dövrdə yaranır, ümumtəhsilin ilk səviyyəsindən başlayaraq Azərbaycan dili dərslərində sistemli fəaliyyət nəticəsində formalaşır, yuxarı siniflərdə isə təkmilləşir. Bu proses yeni sözlərin mənimsədilməsi fonunda təşkil olunur. Kiçikyaşlı məktəblilərə çətin sözləri öyrədərkən orfoqrafik-orfoepik istiqamət üzrə işlərin düzgün təşkilinə xüsusi diqqət yetirilməlidir. Çünki uşaq hansısa kəlmənin mənasını bilməsə də, onu əvvəlcə eşidərək hafizəsində saxlayır və dinlədiyi kimi yazıda ifadə etməyə çalışır. Təbii ki, şagird orfoqrafik və orfoepik qaydalara lazımi qədər (Azərbaycan dili fənn kurikulumu çərçivəsində) bələd deyilsə, yeni sözün yazılışını və tələffüzünü eyniləşdirir.

Hər bir ədəbi dilin inkişafında dəqiq müəyyənləşdirilmiş orfoqrafiya və orfoepiya qaydalarının xüsusi əhəmiyyəti vardır. Dövrünün məşhur alimi, praktik ingilis dilinin qrammatiki C. Qrinvud (James Greenwood, 1753-1828) orfoqrafiyanı "düzgün yazmaq sənəti", amerikalı naşir, pedaqoq Y. Kaminqs (Jakob Abbot Cummings, 1773-1820) "hecaları və sözləri hərflər vasitəsilə ifadə etmək sənəti", ingilis mənşəli amerikalı tədqiqatçı A. Ray (Albert Robinson Ray, 1870-1946) isə "hərflərin təbiətini, gücünü və yazı qaydalarını öyrədən elm" adlandırırdı (1). Müasir dilimizin orfoqrafiyası danışıq dili əsasında qurulduğundan bir sıra orfoqrafiya qaydaları eynilə orfoepiya üçün də keçərlidir (3, s. 7). Məhz bu səbəbdən kiçikyaşlı məktəblilərə çətin sözlər mənimsədilərkən orfoqrafiya və orfoepiyaya eyni dərəcədə diqqət göstərilməlidir. Həmin istiqamətlərdə aparılan işlərin paralel şəkildə tənzimlənməsi daha məqsədəuyğundur. Müəllim ibtidai sinif şagirdlərinə çətin sözləri orfoqrafik-orfoepik baxımdan mənimsətməklə onlarda savadlı nitq vərdişləri, o cümlədən, mükəmməl yazı bacarıqları formalaşdıra bilir. Qısa vaxt ərzində kiçikyaşlı məktəblilərə sözün yazılışını, deyilişini necə öyrətmək olar sualını konkret formada cavablandırmaq mümkünsüzdür, çünki proses xaraktercə mürəkkəb və uzunmüddətlidir, müəllimdən səbir, təmkin, pedaqoji texnologiyaların ən mükəmməl manipulyasiyasını tələb edir. Deməli, belə situasiyada optimal nəticəni qısa zaman kəsiyində almaq pedaqoqun imkanı xaricindədir. Əlbəttə, iş düzgün qurulduqda, yazı bacarıqlarının qazanılmasında müəyyən irəliləyişlər əldə etmək mümkündür, lakin davamlı və uğurlu nəticəyə nail olmaq üçün uzun müddət lazımdır. Prosesin təşkilinin üç mərhələdə həyata keçirilməsi işin səmərəliliyinin yüksəlməsinə töhfə verə bilər:

Uşaqlara tanış olmayan kəlmələri mənimsətməyin ilk mərhələsi leksik işin aparılmasından ibarətdir. Sözlərin mənasını açıqlamaq üçün müxtəlif üsullar mövcuddur. Prosesin gedişatında müəllimin rəngarəng metod və texnikalardan yararlanması daha faydalıdır. Ən çox tətbiq edilən və səmərəli hesab olunan metodlar barədə qısa məlumat verək.

Sözə aid əşya, hadisə və ya şəklin nümayişi – uşaqlar həmin obyektə baxır, onunla bağlı söz deyir, mənasını müəyyənləşdirir və fərqləndirici xüsusiyyətlərini sadalayırlar.

Leksik iş prosesində tapmacalardan yararlanmaq da faydalı və maraqlıdır: şagirdlər tapmacanı dinləyir, açmasını təxmin edir, cavabın düzgünlüyünü sübuta yetirirlər.

Mənimsədilən söz mətn daxilində elmi və bədii təsviri, əlamətləri, xarakterik xüsusiyyətləri verilməklə də təqdim oluna bilər. Mətnin analizi müəllimə yalnız leksik iş aparmaqda deyil, həmçinin ətraf aləmlə əlaqəli zəruri məlumatları şagirdlərə ötürməkdə, onların elmi-idraki, bədii-yaradıcı təfəkkürünü zənginləşdirməkdə yardım göstərir.

Uşaqlara çətin sözü mənimsətməyin ikinci mərhələsi orfoqrafik, orfoepik çalışmaların verilməsindən, etimoloji təhlilin aparılmasından ibarətdir. Şagirdlərə təklif edilir ki, seçilən kəlmənin və ya ifadənin (məsələn, ayaqqabı – ayaq-qabı) tərkibindəki səsləri diqqətlə dinləsinlər, hərfləri müəyyənləşdirsinlər. Növbəti periodda müəllim sözdəki hərflərdən ikisini (sözün quruluşca növündən asılı olaraq bəzən üçünü) buraxmaqla lövhədə yazır. Kiçikyaşlı məktəblilər həmin orfoqramları tamamlamağa çalışırlar. Onunla eyniköklü sözləri müəyyənləşdirməklə tapşırığın çətinlik dərəcəsini artırmaq mümkündür. Beləliklə, uşaqlara yeni kəlmələri mənim-

sətmək və şagirdlərin lüğət ehtiyatını genişləndirmək olar. Öyrənənlərə lüğətçə hazırlamağı, naməlum hesab etdikləri sözləri orada qeyd etməyi, orfoqrafik-orfoepik baxımdan çətinlik törədən səs və ya hərflərin altından xətt çəkməyi tapşırmaq da işin keyfiyyətini yüksəltməyə hesablanmışdır. Prosesin davamı kimi etimoloji təhlil (analiz) aparıla bilər. Həmin kəlmələr müxtəlif üsullarla təkrarlanmalıdır ki, hafizədə tam möhkəmlənsin.

Sadalananlarla yanaşı, çətin sözlərin orfoqrafik-orfoepik baxımdan mənimsədilməsində imla xüsusi əhəmiyyətə malikdir. Müəllimin kiçikyaşlı məktəblilərin marağını cəlb edən rəngarəng, çoxçeşidli imla növlərindən (şəkilli, görmə, kommentarili (izahlı), xəbərdarlıqlı, izahatlı, müəyyənləşdirici, seçmə, yaradıcı, yaddaşa əsaslanan, tapmacalı, boşluqlu imla və s.) yararlanması tövsiyə olunur.

İbtidai sinif şagirdlərinə yeni sözü mənimsətməyin üçüncü və yekun mərhələsi pedaqoqdan daha böyük məsuliyyət və diqqət tələb edir. Çünki kiçikyaşlı məktəblilər bu periodda həmin kəlmələrdən müstəqil şəkildə istifadə etmək, faydalanmaq bacarığı qazanırlar.

Verilən mövzu əsasında qısa mətn qurmaq mövcud vəziyyət üçün ən optimal tapşırıq növlərindəndir. Tematikanın müəyyənləşdirilməsi mənimsədiləcək sözlə birbaşa əlaqədar olmalıdır. Məsələn: bayraq, cümhuriyyət, təqsirkar və s. Mövzuların adı siniflər üzrə qruplaşdırılmış çətin sözlər siyahısından, kiçikyaşlı məktəblilərin mütəmadi şəkildə yenilədiyi, əlavələr etdiyi şəxsi lüğətçələrindən də götürülə bilər. Burada həssas bir məqama mütləq ayrıca diqqət yetirilməlidir: ibtidai sinif şagirdlərinin spesifik xüsusiyyətləri, həmçinin çətin söz anlayışının nisbiliyi lüğətlərin tərkibində müəyyən fərqlər yaratdığından pedaqoq prosesin səmərəli şəkildə həyata keçirilməsi məqsədilə siyahılarda üstünlük təşkil edən kəlmələri, ifadələri seçməlidir.

Kiçikyaşlı məktəblilərə müəyyən əşya və ya hadisə ilə əlaqədar suallar ünvanlamaq, göstərişlər vermək də çətin sözlərin mənimsədilməsinə kömək göstərən tapşırıq növlərindəndir. Belə tipli çalışmalar hazırlanarkən uşaqların maraqları, meyilləri nəzərə alınmalıdır. Yalnız bu zaman tapşırıq materiallarının (suallar və göstərişlər) keyfiyyətindən və səmərəliliyindən danışmaq mümkündür. Məsələn: "Rəssam olsaydın, ömür boyu qu quşu görməyən insana onu necə təsvir edərdin?". "Çinar ağacını nə üçün sevirsən?", "Açması "kəlbətin" olan tapmacanı necə düzəldə bilərsən?", "Azərbaycanın təbiətinə dair krossvord hazırla." "Rəndə nədir?", "Penal sözü ilə əlaqədar nə düşünürsən?", "Bayrağımız haqqında danış." və s.

Çətin sözlərin orfoqrafik-orfoepik baxımdan öyrədilməsi bir dərslə məhdudlaşmayan, təlimin hər mərhələsində davam edən prosesdir. Yeni və ya tanış olmayan kəlmələrin uşaqların aktiv lüğət fondunda möhkəmlənməsi, təkrarən istifadə edilməsi uzun müddəti əhatələyir. Bu səbəbdən çətin sözlərin mənimsədilməsi prosesi müəyyən məntiqi çərçivədə tənzimlənməlidir. Şagirdlərə öyrədilmək üçün seçilən kəlmələr və onların sayları öncədən dəqiqləşdirilməlidir. Əks təqdirdə aparılan iş öz əhəmiyyətini itirə bilər. Dünya təcrübəsinə görə 45 dəqiqəlik dərs ərzində məktəblilərə orta hesabla 5-10 çətin söz mənimsətmək mümkündür, daha doğrusu, reallığa uyğundur. Bəzən (pedaqoji-psixoloji şərait imkan verdikdə: sinfin nailiyyət və inkişaf səviyyəsi, maraq dairəsi və s.) yuxarıda göstərilən sayı aşmaq (maksimum 20-30 söz) istisna deyil. Lakin nəzərə almaq lazımdır ki, öyrədilən kəlmələr şagirdlərin yalnız aktiv lüğət fonduna daxil olarsa, tam mənimsədilmiş hesab edilir. Ümumiyyətlə, müəllim çətin sözlərin öyrədilməsi alqoritminin pozulmamasına ciddi səy göstərməli, onu nəzarətdə saxlamalıdır. Pedaqoq, yeri gəldikcə, şagirdlərə lüğətçələrindəki kəlmələri söz birləşmələrində, cümlədə, mətn daxilində işlətməyi tapşırmalı, mənanın, yazılış və tələffüzün düzgünlüyünün qorunmasına diqqət yetirməlidir. Çətin sözlərin nitqdə möhkəmlənməsi üçün dərslikdəki, əlavə vəsaitlərdəki dil materiallarından, mətnlərdən, sinonimlərdən, antonimlərdən, frazeoloji vahidlərdən, zərb-məsəllərdən, atalar sözlərindən, tapmacalardan faydalanmaq mümkündür.

Orfoqrafiya və orfoepiya üzrə aparılan işlərin sinifdənxaric məşğələlərdə də davam etdirilməsi tövsiyə olunur. Seçilən çətin söz, həmçinin onunla əlaqəli tematik qrup (ağaclar, tərəvəzlər, heyvanlar, quşlar, təbiət hadisələri) şagirdlərin diqqətini çəkən çalışmalar vasitəsilə hafizədə möhkəmləndirilə bilər. Sözün leksik qrupu üzrə iş də faydalıdır. Belə məşğələlərin təşkili zamanı müəllimin rəhbərliyi altında kiçikyaşlı məktəblilərin şəxsi linqvistik lüğətçələrinin hazırlanması keyfiyyətli nəticənin əldə olunmasına zəmin yaradır.





Bütün bunlarla yanaşı, şagirdlərə orfoqrafiya və orfoepiya lüğətlərindən istifadə etmək vərdişlərini aşılamaq lazımdır. "Orfoqrafiya-orfoepiya" lüğəti onların stolüstü kitabına çevrilməlidir (2).

Orfoqrafiya və orfoepiya üzrə aparılan işlərin təşkili zamanı aşağıda sadalanan məqamlara diqqət yönəldilməsi zəruridir:

1) Kiçikyaşlı məktəblilərə lüğətdən istifadə alqoritmini öyrətmək;

2) Lüğət vasitəsilə ibtidai sinif şagirdlərinin söz bazasını zənginləşdirmək;

3) Şagirdlərə sözün mənasını izah etmək, məzmununu müəyyənləşdirmək bacarığı qazandırmaq;

4) Məktəblilərlə birlikdə sözün məna çalarlarını ortaya çıxarmaq və antonim, omonim, eyniköklülük münasibətlərini araşdırmaq;

5) Şagirdləri sözü təklikdə, birləşmələrin tərkibində və cümlə daxilində işlətməyə həvəsləndirmək;

6) Öyrənənlərə sözdən müstəqil şəkildə istifadə etmək bacarığı formalaşdırmaq.

Deməli, haqqında danışılan prosesi çoxmərhələli, vahid mexanizm kimi nəzərdən keçirdikdə aydın görmək olar ki, çətin sözlər üzərində orfoqrafik-orfoepik işin aparılması şagirdlərin yalnız söz bazasını dəqiqləşdirmək, aktivləşdirmək, genişləndirmək xarakteri daşımır, həm də yazı bacarıqlarının inkişafında, doğma dilimizin gözəlliklərini anlamaqda əvəzedilməz rol oynayır.

**Problemin aktuallığı.** Orfoqrafik-orfoepik baxımdan çətin sözlər üzərində işin ibtidai sinif şagirdlərinin yazı bacarıqlarının inkişafındakı rolunun müəyyənləşdirilməsi, kiçikyaşlıların lüğət ehtiyatının yeni kəlmələr hesabına genişləndirilməsi və artırılması yolları ilə bağlı ölkəmizdə tutarlı araşdırmalar minimal sayda olduğundan tədqiqat işi hazırda aktuallıq daşıyır.

**Problemin elmi yeniliyi.** Məqalədə ibtidai sinif şagirdlərinin yazı bacarıqlarının formalaşması xüsusiyyətləri və çətin sözlərin öyrədilməsində orfoqrafik-orfoepik işin əhəmiyyəti barədə geniş məlumat verilir, prosesin səmərəli təşkilinə zəmin yaradan amillər sistemləşdirilərək diqqətə çatdırılır.

**Problemin praktik əhəmiyyəti.** İbtidai siniflərin Azərbaycan dili dərslərində mövzu ilə bağlı aparılan müşahidələr, təşkil edilən eksperimentlər, məktəb təcrübəsinin təhlili, həmçinin elmi ədəbiyyatın araşdırılması bu istiqamətdə müəyyən boşluqların olduğunu üzə çıxarır. Tədqiqat işi mövcud çatışmazlıqların aradan qaldırılmasına hesablandığından böyük praktik əhəmiyyətə malikdir.

**Ədəbiyyat:**


1. Abbasov İ.Ə. Yazı qaydalarımızın kitabi-müqəddəsi – orfoqrafiya lüğəti. "Kaspi" qəz., 2017, 29 noyabr
2. Paşayev A. Azərbaycan dili və ədəbiyyatı tədrisinin bəzi problemləri: Metodik vəsait. Bakı: Hədəf nəşrləri, 2012.
3. Şirəliyev M.Ş., Məmmədov M.B. Azərbaycan dilinin orfoepiya sözlüyü (lüğəti). Bakı: Elm. 1983.
4. Hacıeminoğlu N. Türkçenin karanlık günleri. İstanbul: Türk Edebiyatı Vakfı Yayınları, 2011.
5. Özbay M., Melanlıoğlu D. Türkçe eğitiminde kelime hazinesinin önemi // Yüzüncü Yıl Üniversitesi Eğitim Fakültesi Dergisi, 2008, № 1
6. Vardar B. Açıklamalı Dilbilim Terimleri Sözlüğü. İstanbul: Multilingual Yabancı dil Yayınları, 2007.


**E-mail:** samiraqasanova@gmail.com

**Rəyçi:** *ped.ü.fəls.dok., dos.* **A.X. Hacıyev**
**Redaksiyaya daxil olub:** 23.11..2018.